# Hayastana verilmiş silahlar geri qaytarılmalıdır

## Rəsmi İrəvan sülhdən danışır, əməldə isə yeni müharibəyə hazırlaşır





İkinci Qarabağ müharibəsindən ötən müddət ərzində məğlub Ermənistanın hələ də sülh müqaviləsinə imza atmamasının səbəbləri çılpaqlığı ilə özünü göstərməkdədir. Sözdə sülh müqaviləsini imzalamağa hazır olduğunu bəyan edən rəsmi İrəvanın əsl məqsədi tam başqadır. Bunu müxtəlif erməni siyasətçilərinin, diaspor üzvlərinin verdikləri açıqlamalarda da aydın görmək mümkündür. Ermənistanın niyyəti vaxt udmaqla yenidən silahlanıb revanş etməkdir.

Azərbaycana qarşı dəfələrlə bəyanatlarla çıxış edən 27-ci çağırış Türkiyə parlamentinin Xalqların Demokratik Partiyasından (HDP) olan keçmiş deputatı Qaro Paylan son açıqlamasında Ermənistanın bir tərəfdən Azərbaycanla normallaşma adı ilə vaxt qazandığını, digər tərəfdən isə Fransa və ABŞ-dan silah aldığını deməsi əsl oyunu nümayiş etdirir. Paylanın "indi Azərbaycana hücum edəcək gücdə deyilik. Bunun üçün 3-5 ilə ehtiyacımız var. Fransa və ABŞ-nin köməyi ilə ordumuzu gücləndirəcəyik və bu, 3-5 il ərzində mümkün olacaq" fikirləri bir daha təsdiq edir ki, erməni məkri, erməni xisləti dəyişən deyil. Bu ölkə Azərbaycanın Zəfəri ilə barışa bilmir.

Əslində hər kəsə bəllidir ki, Qaro Paylan marionetdir və ümumilikdə erməni siyasi təfəkkürünü nümayiş etdirir. Onun sözləri ümumi bir planı göstərir - vaxt qazanmaq, silah toplamaq, güc yığmaq və müharibəyə hazırlaşmaq.

Erməni əsilli Qaro bu fikirləri ilə yeni işğalın olacağını istisna etmir. Ermənilərin Azərbaycan torpaqlarında gözlərinin olduğunu açıq şəkildə bildirir. Qaro Paylan həmin sabiq deputatdır ki, Türkiyədə yaşayıb bu ölkənin çörəyini yeyə-yeyə 1915-ci il hadisələrini "soyqırımı" kimi təqdim edirdi. İndi isə dedikləri təkzib edir. Bildirir ki, fikri səhv başa düşülüb və ya yozulub.

Bu, o adamdır ki, Ermənistanın sabiq prezidenti S.Sarkisyan tərəfindən vətənə xidmətə görə medalla mükafatlandırılıb. İndi belə bir şəxsin sərsəmləməsi də göstərir ki, Qaro bu gün də Ermənistan hakimiyyətinə yaxın buqələmundur.

Açıq-aşkar görünür ki, Qərb regionda çox təhlükəli strategiyasını həyata keçirmək planını yenidən işə salıb. Xüsusən də Fransa açıq şəkildə nümayiş etdirir ki, Cənubi Qafqaza sabitliyin, əmin-amanlığın gəlməsində maraqlı deyil. Bu ölkə regionda sülhü bərpa etmək əvəzinə, müharibəni daha da alovlandırıb yeni savaşlar çıxarmaq istəyir. Təəssüf ki, müstəqil dövlət olduğunu unudan Ermənistan tərəfi də məhz bu güclərin diktəsi ilə oturub-durur.

Bütün bunlar qüdrətli Azərbaycana yaxşı bəllidir. Qalib ölkə kimi regionda yeni reallıqlar yaradan Azərbaycan baş verən bütün prosesləri izləyir və yaxşı görür. Əgər Ermənistan silahlanırsa, Azərbaycan ondan qat-qat artıq silahlanır. Həm özü istehsal edir, həm də iqtisadi imkanları istənilən hərbi texnikanı almağa imkan verir. Bu günün Azərbaycanı 2020-ci ilin qalib Azərbaycanından qat-qat güclüdür.

Müzəffər Ali Baş Komandan İlham Əliyev bu barədə dəfələrlə məğlub ölkəyə xəbərdarlıq edib. Ötən il "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibəsində cənab İlham Əliyev bildirmişdi ki, Ermənistan silahların əksəriyyətini Qərbdən pulsuz və ya kreditlə almasına, onların təbii ki, silinəcəyinə baxmayaraq, Azərbaycanla silah yarışında tab gətirməyəcək. Makron hökumətinin Ermənistana tədarük etdiyi silahlar hücum silahlarıdır, öldürücüdür və Azərbaycan üçün praktiki təhlükə yaradır: "Nəzərə alsaq ki, Ermənistanla sərhədimizin uzunluğu min kilometrdən çoxdur, bir çox yaşayış məntəqələri sərhədə yaxın yerləşib və bu yaşayış məntəqələrinin əksəriyyətinə keçmiş köçkünlər qayıdırlar, təbii ki, biz bu prosesi yalnız kənardan müşahidə edə bilmərik. Biz dəfələrlə Ermənistana və onun ABŞ Dövlət Departamentindəki himayədarlarına çatdırmışıq ki, buna son qoyulmalıdır. Amma təəssüf ki, bizim səsimiz eşidilmir, Ermənistanın silahlanması prosesi sıçrayışla gedir. Biz bacardığımız qədər orada baş verənləri izləyirik. Ermənistan ərazisinin dərinliyini nəzərə alsaq, texniki baxımdan bu gün bunu etmək o qədər də çətin deyil.

Əlbəttə ki, Fransa bu məsələdə liderlik edir. İkinci yerdə Hindistan, üçüncü yerdə isə ABŞ-dir. Fransa və Hindistan Ermənistanı öldürücü silahlarla təmin etdiklərini gizlətmirlər, - hətta bir növ, yəqin ki, bizim acığımıza nümayişkaranə cəsarət göstərirlər, - ABŞ isə bunu etiraf etmir. Halbuki, biz Ermənistanın hava limanlarına enən və oraya silah daşıyan hərbi nəqliyyat təyyarələrini izləmişik.

Təbii ki, biz adekvat tədbirlər görməyə məcbur idik. 2025-ci ildə növbəti hərbi büdcəmiz rekord büdcə olacaq. Bu, təxminən beş milyard dollardır. Bu məbləğin ən azı 60 faizini xərcləməyə məcburuq, belə təhdidlər olmasaydı, xərcləməzdik, Qarabağın bərpasına, sosial ödənişlərə və sair üçün istifadə edərdik. Lakin biz bunu etməyə məcburuq və edəcəyik. Məncə, bu, fəlakətə aparan yoldur. Birincisi, Ermənistan silahların əksəriyyətini Qərbdən pulsuz və ya kreditlə almasına, onların təbii ki, silinəcəyinə baxmayaraq, bizimlə silah yarışında tab gətirməyəcək. Hətta bu halda da bizimlə silah yarışında tab gətirməyəcəklər".

Prezident İlham Əliyev əlavə edib ki, ermənilər İkinci Qarabağ müharibəsinin və 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatının nəticələrini unutmamalıdırlar. "Həmçinin başa düşməlidirlər ki, Makron rejiminin, eləcə də ABŞ Dövlət Departamentinin maksimum dəstəyinə baxmayaraq, burada, bu yerdə bizə qarşı növbəti təxribat planlaşdırsalar, onlara heç kim kömək etməyəcək. Axı, Makron 2020-ci və ya 2023-cü ildə onlara necə kömək etdi, onları dəstəklədi, bəli, əlindən, yəqin ki, başqa hansı yerindən tutdu, bilmirəm. Bax, bu qədər. Biz onun nəyə qadir olduğunu çox yaxşı bilirik. Odur ki, biz həm danışıqlar prosesi çərçivəsində, həm də Ermənistanla Azərbaycan arasında işləyən delimitasiya komissiyası çərçivəsində və erməni sponsorlara, şərti olaraq Vaşinqtondakı soroscuları bunu dayandırmaq lazım olduğunu çatdırırıq və çatdırmağa davam edəcəyik. Bu, belə davam edərsə, sonradan bizə qarşı heç bir irad tutulmasın", - deyə dövlətimizin başçısı bildirmişdi.

Yanvar ayında yerli televiziya kanallarına müsahibəsində isə Azərbaycan Prezidenti həm Ermənistana, həm də havadarlarına bir daha xəbərdarlığını etdi. Prezident əminliklə vurğuladı ki, bu gün sanki Ermənistanın arxasında duran kimi görünən və onları Azərbaycana qarşı yeni provokasiyalara, təxribatlara təhrik edənlər, çox güman ki, axıra qədər onların arxasında durmayacaqlar. Necə ki, 2020-ci ildə və ondan sonrakı dövrdə dura bilməmişdilər: "Mən bunu artıq bir dəfə demişəm: biz Qarabağın və Şərqi Zəngəzurun bərpasına 4 milyard, hərbi və təhlükəsizlik məsələlərinin həlli üçün 8,4 milyard manat vəsait xərcləyirik. Bu, tam fərqli ola bilərdi. Çünki Ermənistanın silahlanma yarışı, bizim də maliyyə resurslarımızı əsas məsələlərdən başqa hərbi məsələlərə cəlb etməyə məcbur edir".

İlham Əliyev bir daha bəyan edib ki, Ermənistan silahlanmanı dərhal dayandırmalıdır. Ona silah verən Fransa və digər ölkələr o kontraktlara xitam verməlidir, ləğv etməlidir. Artıq Ermənistana göndərilmiş silahlar geri qayıtmalıdır. "Bu, bizim şərtimizdir. İndi kim bunu necə istəyir elə də qəbul etsin. Mən sözümü deyirəm, onlar da bilirlər, onların arxasında duranlar da bilirlər ki, əgər biz nəyisə deyiriksə, deməli, artıq bu məsələyə çox ciddi yanaşırıq", - deyə İlham Əliyev qətiyyətlə vurğulayıb.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 5 fevral (№25).- S.8.